**UOT:** 323.15
**KBT:** 66.4(0)
**MJ №** 168

# Ulu öndər Heydər Əliyevin milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair siyasəti və onun inkişaf istiqamətləri

**İradə Nuriyeva**[*]

**Abstrakt.** "Ulu öndər Heydər Əliyevin milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair siyasəti və onun inkişaf istiqamətləri" adlı məqalədə ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının azsaylı xalqların və etnik qrupların, ümumiyyətlə, bütün millətlərin nümayəndələrinin hüquq və azadlıqlarının təmin olunması, qorunması və müdafiə edilməsinə dair siyasəti şərh olunur. Beynəlxalq hüququn prinsip və normalarına, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Azərbaycan Konstitusiyasının maddələrinə və dövlətin qəbul etdiyi qanunnamələrə əsaslanan multikulturalizm Azərbaycan Respublikasının həyata keçirdiyi dövlət siyasətinin prioritet istiqaməti kimi demokratik cəmiyyətin mövcudluğunu bəyan edən amildir. Azərbaycan müxtəlif millətlərin, azsaylı xalqların və etnik qrupların birgə yaşadığı və bir-birinin adət-ənənələrinə, dilinə, dininə qarşılıqlı hörmət, dini konfensiyaların bərabərhüquqluluğu, dinlərarası inteqrasiya, dözümlülük, qarşılıqlı anlaşma və mehriban qonşuluq münasibətlərinə əsaslanan dinc, yanaşı yaşamasının tarixi təcrübəsinə malik bir diyardır. Ulu öndər Heydər Əliyevin və onun davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin uğurla həyata keçirdikləri multikulturalizm siyasəti, qəbul etdikləri fərman və sərəncamlar Azərbaycan vətəndaşının hüquq və azadlıqlarının bərabərliyinə zəmanət verir. Ölkəmizdə yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması siyasətinin, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımının həyata keçirilməsi müvafiq dövlət qurumlarına əsas vəzifə kimi tapşırılmışdır.

**Açar sözlər:** Ulu öndər Heydər Əliyev, multikulturalizm, tolerantlıq, milli azlıq, bərabərhüquqluluq, dinlərarası inteqrasiya, qarşılıqlı anlaşma, dinc yanaşı yaşama

---

[*] Siyasi elmlər doktoru, professor,
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının professoru; Bakı, Azərbaycan
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**Məqaləyə istinad:** Nuriyeva, İ. [2023] Ulu öndər Heydər Əliyevin milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair siyasəti və onun inkişaf istiqamətləri. *"Metafizika" jurnalı, 6*(2), səh.19-37.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 22.01.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 27.02.2023*
*Çapa qəbul edilmişdir: 06.06.2023*

## 1.Giriş

XX əsrin ikinci yarısı demokratik prinsiplərin inkişafı və dünyanın əksər yerlərində möhkəmlənməsi ilə yadda qaldı. İnsan hüquqları bir çox ölkələrin, habelə beynəlxalq təşkilatların konstitusiyaları ilə qorunan ümumdünya siyasətinin əsasını təşkil etdi. Azərbaycan Respublikası hər zaman bildirirdi ki, vətəndaşların hüquq və azadlıqlarının qorunması demokratik cəmiyyətin mövcudluğunu müəyyən edən amildir. Azərbaycan müxtəlif millətlərin, azsaylı xalqların və etnik qrupların birgə yaşadığı, bir-birinin adət-ənənələrinə, dilinə, dininə hörmət etdiyi, mehriban qonşuluq münasibətlərində dinc yaşayaraq məskunlaşdığı tarixi bir diyardır. Azərbaycan dövlət siyasətinin əsas prioritet istiqamətlərindən olan multikulturalizmin banisi ulu öndər Heydər Əliyevin dediyi kimi: "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi Vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da- bütünlükdə hamısı azərbaycanlıdır". Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu multikulturalizm siyasətini uğurla reallaşdıran Azərbaycan Prezidenti İlham Əliyev demişdir: *"Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir..."*. Azərbaycan dövlətinin multikulturalizm siyasəti dini konsepsiyaların bərabərhüquqluğu, dinlərarası inteqrasiya, dözümlülük və qarşılıqlı anlaşma kimi vacib şərtlərə əsaslanır.

## 2.Azərbaycan Respublikasının qanunnaməsində bütün millətlərin hüquq və azadlıqlarının təmin olunması və müdafiəsi

Azərbaycanın multikulturalizm siyasəti beynəlxalq hüququn prinsip və normalarına, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Respublika Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Qanununun 19-cu maddəsində Azərbaycan Respublikasının bütün vətəndaşları qanun qarşısında bərabərdir. Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə, Helsinki Konfransının Yekun Aktına və digər ümumtanınmış beynəlxalq hüquqi sənədlərə qoşularaq, cinsindən, irqi və milli mənsubyyətindən, dini, sosial mənşəyindən, siyasi əqidəsindən və digər hallardan asılı olmayaraq, onların nəzərdə tutulmuş bütün hüquq və azadlıqlarına riayət edilməsini və maneəsiz həyata keçirilməsini təmin edir [Suleymanova, E-nın ümumi redaktəsi ilə, 2003. s.40, 45]. Azərbaycan Respublikasının Konstitusiyasında və dövlətin qəbul etdiyi digər hüquqi aktlarda bütün millətlərin hüquq və azadlıqları beynəlxalq norma və prinsiplərə uyğun tənzimlənir. Belə ki, Konstitusiyanın III fəslinin 25-ci, 32-ci, 44-cü, 45-ci, 127-ci maddələri Azərbaycan Respublikasının sərhədləri hüdudlarında yaşayan milli azlıqların, azsaylı xalqların və etnik

qrupların əsas insan hüquq və azadlıqlarına və onların sərbəst, maneəsiz və bütün insanlar üçün bərabər şərtlərlə beynəlxalq hüquqi norma və prinsipləri əsas götürərək təmin edilməsinə həsr edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin III hissəsində deyilir: *"Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır"* [ARK (4), maddə 25]. 47-ci maddəyə əsasən isə *"irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqat və təbliğat"* qadağan edilir [5, s.41, 58]. Əsrlər boyu Azərbaycan çoxmillətli ölkə olmuşdur və bir çox xalqların dinc yanaşı yaşamasının tarixi təcrübəsinə malikdir. Ulu öndər Heydər Əliyevin 1992-ci il 16 sentyabr tarixində *"Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında"* imzaladığı Fərmanda müvafiq dövlət qurumlarına sənəddə göstərilən istiqamətlərdə dövlət yardımının və hökumətin milli azlıqların hüquq və azadlıqlarının qorunması siyasətinin həyata keçirilməsi əsas vəzifə kimi tapşırılmışdır [5, s.45, 58]. Milli məsələlərin müvəffəqiyyətlə həlli, milli azlıqların hüquqlarının qorunması, öz müqəddəratını təyin etməyə (milli-mədəni muxtariyyət səviyyəsində) imkan verilməsi, yerli xalqların və digər milli azlıqların mədəniyyətinin, dilinin, adət-ənənəsinin və dininin, milli sənətkarlığının, peşəkarlıq və özfəaliyyət yaradıcılığının və xalq sənətlərinin, milli kitabxanalarının, ədəbiyyatının, folklorunun sərbəst inkişaf etdirilməsi, onların tarixi və mədəniyyət abidələrinin qorunması, teleradio proqramlarının və s. təşkili və inkişafı sahəsində [6] görülən işlər Azərbaycan Respublikasının İnsan Hüquqları Komitəsinə 8 noyabr 1999-cu il tarixində verdiyi ikinci dövri hesabatında tam əksini tapmışdır [Nuriyeva. 2021, s.125]. Biz bu hesabatın mövzuya dair bir neçə maddəsini sadalayaq:

4. "... Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycanda ümumbəşəri dəyərlərə, qanunun aliliyinə və insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına əsaslanan hüquqi dünyəvi dövlət qurma yolunu elan etdi".

63. Azərbaycan Respublikasında azlıqların hüquqlarının təşviqi və qorunması məqsədilə "Hüquq və azadlıqların qorunması, Azərbaycan Respublikasında yaşayan milli azlıqların, azsaylı xalqların və etnik qrupların dil və mədəniyyətinin inkişafına dövlət dəstəyi haqqında" Respublika Prezidentinin (Ulu Öndər Heydər Əliyev) Fərmanı qəbul edildi".

460. “Dini etiqad azadlığı haqqında” qanuna uyğun olaraq, hər hansı bir dinə və dini qurumlara digərlərinə münasibətdə üstünlük və məhdudiyyətlərin qoyulmasına yol verilmir.

464. Hazırda ölkədə 200-dən çox müsəlman məscidi, 50-dən çox xristian kilsəsi və icması və 5 sinaqoq qeydiyyatdadır. Qafqaz müsəlmanlarının dini icmaları, qurumları və mərkəzləri, rus pravoslav kilsələri, yevangelist xristianlar-baptistlər, adventist icmalar, protestant xristianların beynəlxalq cəmiyyəti (“Həyat verən lütf”), beynəlxalq cəmiyyətlərin filialları- Krişna və Bəhai da Azərbaycanda fəaliyyət göstərirlər. Bunlara əlavə olaraq, yüzlərlə müxtəlif dini qurumlar rəsmi olaraq fəaliyyət göstərir, bunların təxminən 60-ı xristian dininə mənsub olan icmalardır.

467. Azərbaycanda bir sıra İslam, Xristian və Yəhudi dini tədris müəssisələri fəaliyyət göstərir: Bakı İslam Universiteti, bir neçə mədrəsə, xristian pravoslav kilsələrdəki bazar günü məktəbləri, Əllinci gün Adventistlərin Müqəddəs İncil kursları, Beynəlxalq xristian protestant birliyinin İncil Məktəbi (“Həyat verən lütf”).

468. Eyni zamanda, Bakıda 46 nömrəli orta məktəbin bazasında ibrani (ivrit) dilini, yəhudi dini, mədəniyyəti və tarixini öyrənmək üçün siniflər açılmışdır.

472. Azərbaycanda bütün dini konfessiyaların milli-dini bayramları geniş qeyd olunur. Prezident Fondu müntəzəm olaraq yəhudi sinaqoquna və pravoslav kilsəsinə maddi yardım göstərir.

Qanun qarşısında bərabərlik və qorunma hüququ:

629. Azərbaycan çoxmillətli bir ölkədir və hökumət azlıqların respublikanın həyat fəaliyyətinin bütün sahələrində fəal və bərabərhüquqlu iştiraka cəlb edilməsinə, şəxsiyyətin hüquq, azadlıqlarının və bütün vətəndaşların bərabərhüquqluluğunun davamlı şəkildə həyata keçirilməsinə şərait yaratmaq üçün lazımi tədbirlər görür.

630. Müxtəlif azlıqlar Azərbaycan Respublikasının rəsmi dövlət strukturlarında, onun hökumətində və Milli Məclisdə geniş təmsil olunurlar. Etnik azlıqların kompakt yaşadığı şəhər və rayonlarda, qəsəbə və kəndlərdə dövlət orqanlarında rəhbər vəzifələrdə çalışan şəxslər Azərbaycan Respublikasında bəyan edilmiş insan hüquqları və şəxsi azadlıqları, irqindən, milli mənsubiyyətindən və dinindən asılı olmayaraq bütün vətəndaşların bərabərliyini nəzərdə tutan və qoruyan siyasi xətti həyata keçirirlər.

631. Son illərdə Azərbaycanda yaşayan bütün azlıqların mədəniyyət mərkəzləri, xeyriyyə cəmiyyətləri və digər ictimai təşkilatlar açılmışdır. Dövlət büdcəsindən və Prezident Fondundan bu təşkilatlara, xüsusən də, torpaq ayrılması və vergi güzəştlərindən ibarət mümkün maddi və maliyyə yardımı göstərilir.

Təhsil və təlim:

636. Təhsil Nazirliyində azlıqların dilinin tədrisi üçün zəruri olan proqramlar, dərsliklər və dərs vəsaitləri hazırlamaq və öyrənmək üçün Şura yaradılmışdır.

637. Etnik gürcülərin kompakt yaşadığı yerlərdə üç dildə tədris olunan 2 məktəb var: Azərbaycan, gürcü və rus.

638. Azlıqlara mənsub insanların kompakt yaşadıqları yerlərdə yerləşən məktəblərdə həftədə iki saatlıq ana dili, tarix və milli mədəniyyətin tədrisi tətbiq edilmişdir. Belə təlim ləzgi, tat, talış və digər dillərdə aparılır.

639. Dövlətin Xınalıq dağ kəndinin sakinlərinin dilinə münasibəti diqqətə layiqdir. Bu kəndin sakinlərinin dilinin heç bir dil qrupuna aid olmamasına və yalnız bir kəndin əhalisinin danışmasına baxmayaraq, Xınalıq dilində kitablar çap olunur, respublikada “Xınalıq” mədəniyyət mərkəzi fəaliyyət göstərir.

640. 1997-ci ildə dövlət vəsaiti hesabına rus, talış, kürd, ləzgi, tsaxur və tat dillərində əlifba və digər dərsliklər nəşr olunmuşdur.

644. Azərbaycanda aşağıdakı təşkilatlar və milli azlıqların milli-mədəni mərkəzləri fəaliyyət göstərir: Beynəlxalq “Mada” (talış) Cəmiyyəti, “Samur” Ləzgi Mədəniyyət Mərkəzi, Dağ Yəhudi İcması, Alman Milli Mədəniyyət Cəmiyyəti, Azərbaycan Rus İcması və s.- cəmi 28.

647. Azərbaycanda, milli azlıqların kompakt yaşadığı yerlərdə klublarda özfəaliyyət dərnəkləri, bədii kollektivlər, xalq və dövlət teatrları, həvəskar dərnəklər və maraq klubları fəaliyyət göstərir. Məsələn, Qusar rayonunda Ləzgi Dövlət Teatrı, Qax rayonunda Gürcü Milli Teatrı və Xalq Kukla Teatrı, Astara və Masallı rayonlarında Talış folklor qrupları, Saatlı rayonunda Türk folklor qrupu “Adıgün”ü, Bakı şəhərində “Tugan Tel” Tatar mahnı və rəqs ansamblı və Rus “Sudaruşka” ansamblını göstərmək olar.

651. Azərbaycanda Respublikasında yaşayan müxtəlif azsaylı xalqların dillərində radio və televiziya verilişləri fəaliyyət göstərir, kitablar, jurnallar və qəzetlər nəşr olunur. Belə ki, kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində respublika radiolarında dövlət büdcəsindən maliyyələşdirilən müntəzəm radio verilişləri təşkil olunur. Balakən rayonunun yerli radio verilişləri avar, Xaçmaz rayonunda ləzgi və tat dillərində, Qusar və Xaçmaz rayonlarında yerli televiziyalar ləzgi dilində fəaliyyət göstərir. Bakı şəhərində rus dilində 20-dən çox qəzet və jurnal nəşr olunur, hər gün radio və televiziya verilişləri aparılır. RTR, ORT və s. Rusiya və TRT1, STB, kanal D və s. türk proqramlarının tam yayımı həyata keçirilir. Azərbaycanda dövlət televiziya kanalında və özəl televiziya kanallarında ingilis dilində proqramlar yayımlanır. Qəzetlər kürd, ləzgi, talış, gürcü dillərində də nəşr olunur. Bu nəşrlər dövlətdən maddi yardım alır. Xüsusilə, Azərbaycanda ləzgi dilində

"Samur" qəzeti və kürd dilində "Dəngi kürd", Qusar rayonunda ləzgi dilində "Qusar", Yəhudi Cəmiyyəti "Soxnut" tərəfindən "Əziz" qəzetləri [12] nəşr olunur.

**3.Azsaylı xalqların, milli azlıqların mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi hökumətin mühüm fəaliyyət istiqamətlərindən biridir**

Milli azlıqların hüquqlarının müdafiəsi, dil, din və milli mədəniyyətlərinin inkişafı, adət-ənənələrinin qorunması siyasətinin dövlət tərəfindən daim ardıcıl olaraq həyata keçirilməsi 2020-ci ilin "Milli azlıqların müdafiəsi haqqında hesabat"ında geniş şərh olunmuşdur. Belə ki, 2006-cı ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı müvafiq Fərmanına əsasən qəbul edilən "İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda, o cümlədən, dövlət başçısının 2011-ci il 27 dekabr tarixli Sərəncamına əsasən təsdiq edilən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda azsaylı xalqların, milli azlıqların mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi hökumətin mühüm fəaliyyət istiqamətlərindəndir [16]. Bu siyasət Respublika Prezidentinin qəbul etdiyi müvafiq sərəncamları üzrə təsdiq edilən Azərbaycan dövlətinin regionlarının 2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci və 2019-2023-cü illərdə sosial-iqtisadi inkişaf planları Dövlət Proqramlarında öz əksini tapmışdır. Bundan başqa, "Azərbaycan Respublikası regionlarının, o cümlədən, Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər planı" (14 sentyabr 2005-ci il), "Azərbaycan Respublikasının Şəki şəhərinin, Balakən, Qax və Zaqatala rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" (1 iyun 2006-cı il), "Azərbaycan Respublikası regionlarının, o cümlədən, Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında" (3 avqust 2005-ci il) sərəncamları Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmışdır [2, s.272-273; 7]. Müvafiq sərəncamlar üzrə milli azlıqların, azsaylı xalqların və etnik qrupların kompakt yaşadıqları ərazilərdə sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və s. sahələrdə geniş miqyaslı layihələr həyata keçirilir. Bununla belə, respublikada milli azlıqlara aid bütün məsələlərlə 50-dək QHT və bir sıra digər təşkilatlar məşğul olur. Hal-hazırda Azərbaycanda mütəmadi olaraq kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində radio verilişləri səslənir, 5 regional tele-radio kanalları fəaliyyət göstərir, 15-dən çox qəzet və jurnallar, o cümlədən, rus dilində 30-dan çox 130 qəzet və 15 jurnal nəşr edilir [8]. Bakıda S.Vurğun adına Rus Dövlət Dram Teatrı, Lənkəranda Dövlət Dram

Teatrı, Qusarda Ləzgi Dövlət Dram Teatrı, Qaxda Gürcü Dövlət Teatrı [17], o cümlədən, milli azlıqlara aid 40-dan çox musiqi və folklor kollektivləri, Quba, Lənkəran və Şəki şəhərlərində Azərbaycan Yazıçılar Birliyinin filialları fəaliyyət göstərir. 2003-cü ildən etibarən Bakı şəhərində ivrit dilini, yəhudi xalqının tarixini və mədəniyyətini tədris edən özəl yəhudi orta məktəbi açılmış, ivrit dilinin tədrisi Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində də təşkil edilmişdir. 2010-cu ilin oktyabr ayında Bakıda “Xabad Or-Avner” yəhudi təhsil kompleksi istifadəyə verilmışdır [2, s.248]. Bakıda Bakı Slavyan Universiteti və digər ali təhsil ocaqlarında rus bölmələri mövcuddur. 2011-ci ildə Bakıda 558 səhifəlik “Ləzgi dilinin orfoqrafik lüğəti”, dağ yəhudilərinin dilinin 34 mindən çox söz və söz birləşmələrini əhatə edən 2 cilddən ibarət lüğət (“Cuuri- rus” və “Rus- cuuri”), 2015-ci ildə “Ləzgicə-azərbaycanca lüğət” və “Talışca-azərbaycanca lüğət” çap olunmuşdur. 2013-cü il noyabrın 15-də Respublika Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışı olub, Bakıda və digər bölgələrdə milli azlıqlara mənsub bir sıra tarixi-dini abidələrdə təmir-bərpa işləri görülüb, həmçinin yeni məscid, kilsə və sinaqoqlar tikilibdir. Bakı şəhərində Roma-katolik kilsəsi inşa olunub və 2008-ci ilin mart ayında rəsmi açılış mərasimi keçirilibdir. Bakıda Lüteran kilsəsi təmir edilərək 2010-cu ilin dekabr ayında istifadəyə verilib, eyni zamanda, Şəmkir və Göygöl rayonlarında da alman-lüteran kilsələri bərpa və təmir olunub. Avropa və dağ yəhudilərinin istifadəsi üçün 2002-ci və 2012-ci illərdə Bakıda nəinki Azərbaycanda, hətta bütün Qafqazda ən böyük və gözəl memarlıq üslubuna malik olan iki yeni sinaqoq inşa edilib, bundan başqa, 2010-cu ildə Qubanın Qırmızı Qəsəbəsində (2 sinaqoq) mövcud olan Giləki sinaqoqu əsaslı olaraq təmir edilibdir. Hal-hazırda Azərbaycanda 6 sinaqoq istifadədir (Bakıda- 2, Qubada- 2, Oğuzda- 2) [7]. 2011-ci ilin iyun ayında Qax rayonu Əlibəyli kəndində yerləşən gürcü-ortodoks məbədi – Müqəddəs Nino kilsəsində təmir-bərpa işləri tamamlandıqdan sonra açılış mərasimi keçirilib, Qəbələ rayonunda Nic qəsəbəsində Çotari kilsəsi də təmir edilib. Heydər Əliyev Fondunun dəstəyi və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2006-cı ildən etibarən hər 2 ildən bir “Azərbaycan-doğma diyar” devizi altında təşkil edilən milli azlıqların ənənəvi musiqi festivallarında 800 nəfər iştirakçısı ilə 40-dan çox kollektiv iştirak edib. 2011-ci ilin may ayında Azərbaycan Respublikası və Müqəddəs Taxt-tac arasında “Katolik kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında” Saziş imzalanıb [7]. Bakı Beynəlxalq Multukulturalizm Mərkəzində fəaliyyət göstərən milli azlıqların etnik-mədəni təşkilatlarını təmsil edən Koordinasiya Şurası təsis edilmişdir. “Mədəniyyətlərarası dialoqa dair Bakı Prosesi”nin davamı olaraq 2011-ci ildən indiyədək Bakıda

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu (World Forum for Intercultural Dialogue) və digər beynəlxalq humanitar forumlar keçirilir. Bu Forumlarda etnik-mədəni müxtəlifliyin və tolerantlığın Azərbaycan modeli ətrafında müzakirələr aparılır [Abdulla, K. və başqaları. 2017. s.319]. 2013-cü il mayın 29-da Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Bakıda təqdimat mərasimi keçirilən Milli Tolerantlıq Mərkəzi müxtəlif dinlərarası və mədəniyyətlərarası dialoqun və əməkdaşlığın inkişafında, etnik-dini dözümlülüyün Azərbaycan modelinin təbliğində və təşviqində əhəmiyyətli rol oynayır. 1-2 sentyabr 2014-cü il tarixində Bakıda "Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə" mövzusunda Avropa Şurasının qarşıqlı dialoq görüşü baş tutmuşdur. 2016-cı il aprelin 25-27 tarixlərində Bakıda BMT-nin Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında VII Qlobal Forumu keçirilmişdir. UNESKO-nun 20 oktyabr 2005-ci ildə qəbul etdiyi "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair Konvensiya"sına uyğun olaraq "Mədəni müxtəlifliyimiz mədəni vəhdətimizdir" layihəsi üzrə respublikanın ərazisində yaşayan azsaylı xalqların, milli azlıqların və yerli xalqların kompakt yaşadığı bölgələrdə milli-mədəni həmrəylik mövzusunda bir sıra tədbirlər həyata keçirilməkdədir [8; 13]. Respublika Prezidenti İlham Əliyevin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi xidməti, 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təsis edilmişdir [14]. 2016-cı il Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Azərbaycanda Multikulturalizm ili" elan edilmişdir. 28-30 iyun 2016-cı ildə isə Bakıda "Azərbaycan- doğma diyar" devizi ilə Milli Azlıqların V Respublika Festivalı, eyni zamanda, 14 rayonun sakinləri olan milli azlıqları təmsil edən 30-dan çox musiqi-folklor kollektivlərinin Heydər Əliyev adına Sarayda qala-konserti keçirilmişdir. Respublika Prezidentinin 10 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılmışdır [7]. Göründüyü kimi, Azərbaycan tolerant bir dövlətdir. Respublika ərazisində yaşayan azsaylı xalqların, milli azlıqların, etnik qrupların hüquqlarının müdafiəsi, mədəniyyətlərinin, adət-ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan 2000-ci il 16 iyun tarixindən qoşulduğu "Milli azlıqların hüquqlarının müdafiəsi haqqında" Çərçivə Konvensiyasının (1998-ci ildə qüvvəyə minib) müəyyən etdiyi: "1) ayrı-seçkiliyin qadağan olunması; 2) milli azlıqlarla əhalinin

çoxluğu arasında bərabərliyin təmin olunmasına yardım etmək; 3) milli azlıqların mədəniyyətinin, dininin, dilinin və adət-ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması; 4) yığıncaqlar, birləşmək, söz, fikir, vicdan və din azadlığı; 5) kütləvi informasiya vasitələrindən istifadə, radio və televiziya proqramları qəbul etmək və translyasiya etmək hüququ; 6) təhsil almaq hüququ; 7) sərhədyanı əlaqələr və əməkdaşlıq; 8) iqtisadi, mədəni və sosial həyatda iştirak” kimi prinsipləri əsas götürərək milli qanunvericiliyində insan hüquq və azadlıqlarını təmin etmişdir. Bununla belə, Çərçivə Konvensiyası sosial vahidliyin təmin olunması prinsipinə əsasən milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların üzərinə müəyyən öhdəliklər də qoyur: … dövlətin razılığı olmadan ondan ayrılmanın qadağan olunması öhdəliyi, həmçinin, dövlətə ümumi inteqrasiya siyasəti naminə müvafiq tədbirlər görmək üçün imkanlar da verir [5, s.40-41, 58]. Çərçivə Konvensiyasının milli azlıqların müdafiəsi prinsipinə uyğun əsas məqsədi: azlıqların tam və həqiqi bərabərliyinin təmin edilməsi, eyni zamanda, hüququn aliliyi, ərazi bütövlüyü və milli dövlət suverenliyi prinsiplərinə hörmət çərçivəsində öz milli xüsusiyyətlərini azad ifadə etmək, qorumaq və inkişaf etdirməsinə imkan verən şəraitin yaradılmasıdır [5, s.40, 58]. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2011-ci ildə qəbul etdiyi “Müasir beynəlxalq hüquqda milli suverenlik və dövlətçilik” adlı 1832 nömrəli qətnamənin 7-ci bəndində deyildiyi kimi “öz müqəddəratını təyinetmə hüququ” avtomatik olaraq “ayrılma hüququ”nu vermir [3]. “Xalqların bərabərhüquqluğu və öz müqəddəratını təyinetmə” prinsipi bütün millətlərin, xalqların və etnik qrupların çoxsaylı keyfiyyət göstəricilərini nəzərə alaraq müvafiq təyinetmə səviyyəsindən sərbəst istifadə etmələrini təmin edir, belə ki, keyfiyyət göstəriciləri olmadan “öz müqəddəratını təyinetmə”nin ən yüksək səviyyəsinə iddia etmək qanuni deyil. Beləliklə, dövlətlərin “ərazi bütövlüyü” və xalqın konkret siyasi-hüquqi statusu nümunəsində “xalqların bərabərhüquqluğu və öz müqəddəratını təyinetmə” prinsiplərinin qarşılıqlı əlaqəsi və reallaşdırılması problemlərinin elmi-praktik cəhətdən təhlil edilməsinin labüd nəticəsi ondan ibarətdir ki, dövlətlərin “ərazi bütövlüyü” və “xalqların bərabərhüquqluğu və öz müqəddəratını təyinetmə” prinsipləri bərabər əhəmiyyətə malikdirlər, bir-birlərinə tabe deyillər, bir-birlərini qarşılıqlı şərtləndirirlər və dialektik vəhdət təşkil edirlər.

Erməni millətçilərinin fikrincə, onları Dağlıq Qarabağda “öz müqəddəratını təyinetmə (ayrılaraq)” yolunu seçməyə sövq edən səbəblərdən biri Azərbaycanda qeyri-islami dinlərə və digər millətlərə qarşı ayrıseçkilik siyasətidir. Moskva və Bütün Rusiya patriarxı II Aleksinin 2001-ci il may ayının sonlarında Azərbaycana səfəri zamanı aldığı təəssüratlar həyasızcasına

edilən bu böhtanı təkzib etdi. Moskva və Bütün Rusiya patriarxı II Aleksinin Bakıya səfəri çox uğurlu oldu. Onu Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycan Respublikasının ümummilli Lideri Heydər Əliyev və parlamentin spikeri, nazirlər, millət vəkilləri, dini konfessiyaların rəhbərləri, xarici ölkələrin səfirləri qəbul etdilər və II Aleksi çadırlarda yaşayan qaçqınları da ziyarət etdi. Şübhəsiz ki, Rus Pravoslav kilsəsinin başçısını Azərbaycan Respublikasındakı rusların yaşayış tərzi, pravoslavların və burada olan rusdilli insanların hüquqlarının qorunmasına riayət edilməsi [Nuriyeva, 2021 s.251] xüsusilə maraqlandırırdı. Rusiyadakı *“Azərros - Rusiya azərbaycanlıları”* qəzetinin baş redaktoru Əfrand Daşdəmirovu qəbul edən patriarx Azərbaycanda gördükləri ilə bağlı təəssüratlarını onunla bölüşdü: “Sizdən gizlətməyəcəyəm. Mənim xatirimdə Azərbaycana səfərimdən yaxşı təəssüratlar qaldı. Rusdilli əhali, rus icmasının nümayəndələri ilə görüşdüm, Bakıda yerləşən hər üç pravoslav kilsəsini ziyarət etdim, Lukoil neft şirkətinin rəhbəri Vahid Ələkbərovun xeyriyyəçiliyi sayəsində bərpa olunan Müqəddəs Mürdaşıyan Zənənlər Baş kilsəsini təqdis etdim. Pravoslav xristianların bərabər hüquq və azadlıqlara sahib olduqlarına və özlərini dinlərinə və ya milliyətlərinə görə ikinci dərəcəli insanlar kimi hiss etmədiklərinə əmin oldum. Burada yaşayan müxtəlif dinlərin nümayəndələrinin timsalında birgəyaşayışın nümunəsi şahidi oldum. Slavyan Universitetində olduq, burada təkcə slavyan millətinə mənsub insanlar deyil, eyni zamanda, rus mədəniyyətini, dilini öyrənən azərbaycanlılar da təhsil alır [15]. Azərbaycanda çoxlu rus məktəblərinin qorunub saxlanıldığını bilmək məni çox məmnun etdi, burada yalnız rus uşaqları deyil, həm də yeniyetmə azərbaycanlılar da oxuyurlar. Mən çox şadam ki, Azərbaycan hökuməti ruslara qayğı göstərir və postsovet məkanının bəzi ölkələrində olduğu kimi rus dilində danışanlara qarşı təqiblər təşkil etmir (məsələn, Ermənistanda rus dilində danışanların sayı demək olar ki, sıfırdır, onlardan yalnız bir neçə insan qalıb ki, bunlar da qarışıq nigahın üzvləridir. Burada, hazırda ermənilərdən əlavə bir neçə yüz yezidi kürdləri yaşayır. Ermənistan monoetnik bir respublikadır)” [15]. Patriarx daha sonra Azərbaycanın dünyada Qafqaz Müsəlmanları Ruhani İdarəsinin rəhbərinin şiələrə və sünnilərə rəhbərlik etdiyi yeganə müsəlman ölkəsi olduğuna heyran qaldı. Azərbaycan vətəndaşların və eləcə də, ənənəvi dinlərin bərabərhüquqluluğu ilə fərqlənir. Patriarx II Aleksi müsahibəsində qeyd etdi ki, Azərbaycana səfər etdikdən sonra Azərbaycanda yaşayan və əhalinin digər nümayəndələri kimi onun inkişafına töhfə verən Rus Pravoslav Kilsəsinin mənsubları üçün daxili rahatlıq hiss etdi. Onlar Bakı şəhərində və Azərbaycanın digər yerlərində mövcud olan məbədlərdə dua etmək, özünü ruhən möhkəmləndirmək fürsətinə malikdirlər. Patriarx Şeyx ilə Rus

yeparxiyasına rəhbərlik edən yepiskop Aleksandr arasındakı mehriban, qardaş münasibətləri dəstəklədi. O, təkcə Bakıda möminlərin mənəvi ehtiyaclarını ödəyən üç pravoslav kilsəsinin olduğundan məmnun oldu [15]. 2003-cü il 16-18 aprel tarixlərində Ekumenik Patriarx I Varfolomey Azərbaycana rəsmi səfər etdi. Pravoslav dünyasında birinci olan Konstantinopol Kilsəsinin nümayəndəsi səfər çərçivəsində Azərbaycanda mövcud olan dini birliklərin rəhbərləri ilə görüşdü. Yepiskop Aleksandr (Işein), Avropa yəhudiləri icmasının rəhbəri Q.Zelmanoviç və dağ yəhudiləri icmasının rəhbəri S.İxiilov Patriarxa hörmətlərini ifadə etdilər. Patriarx I Varfolomey, hörmətli qonağa Quranın Azərbaycan dilinə tərcüməsini təqdim edən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin (QMRİ) rəhbəri Şeyxülislam Allahşükür Paşazadənin iqamətgahında oldu. Patriarx I Varfolomey öz adından və Konstantinopol Kilsəsinin Müqəddəs Sinodu adından səmimi qəbul üçün təşəkkür etdi və fərqli dinlər arasında dialoqun qurulması üçün belə görüşlərin keçirilməsinin vacibliyini qeyd etdi: “Əsasən şiə müsəlmanlarının yaşadığı Azərbaycanda bütün dini icmaların nümayəndələri üçün bərabər şərait yaradılıbdır. Erməni diasporu üçün də eyni şərait yaradılmışdır, lakin, o, erməni kilsəsinin təşviqi ilə azərbaycanlılara münasibətdə düşmən mövqe tutdu. Erməni diasporu Qarabağ münaqişəsinin alovlanmasında mühüm rol oynadı və hələ də mövqeyindən əl çəkmir. Lakin, biz bu münaqişəni müsəlmanlarla xristianlar arasında qarşıdurma kimi qəbul etmirik” [11]. Eyni zamanda, Şeyx qonağa Azərbaycan, Gürcüstan və Rusiya bölgələrində münaqişələrin sülh yolu ilə həll edilməsi üçün dini liderlər tərəfindən görülən səylər barədə də məlumat verdi. Öz növbəsində Patriarx I Varfolomey qeyd etdi ki, “qonşu ölkə ilə münaqişə nəticəsində Azərbaycanın olduğu vəziyyət Allaha xoş olmayan bir hadisədir”. “Azərbaycanın öz ərazilərini tam idarə edə bilməməsi və müharibə nəticəsində öz ərazilərində evlərindən məhrum olan çox sayda qaçqının olması dərin kədərə səbəb olur”- deyərək Konstantinopol Kilsəsinin nümayəndəsi bildirdi. *“Bu Xəzəryanı respublikanın gələcəyi üçün dua edəcəyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Yalnız bu halda Azərbaycan şəhidləri boş yerə qurban verilməmiş olacaqdır”*- I Varfolomey vurğuladı [11]. Nəticədə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ümumdünya tanınmış beynəlxalq prinsip və normaları rəhbər tutaraq Azərbaycan xalqının iradəsi ilə qəbul edilmiş öz qanunları ilə müxtəlif irqi, milli, dil və dini azadlığa və bərabərhüquqluluğa təminat verir.

## 4.Tolerantlıq Azərbaycan dövlətinin din siyasətinin əsas istiqamətlərindən biridir

Azərbaycan xalqının əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi, dövlətdaxili və beynəlxalq

müstəvidə təşviq və təbliğ edilməsi dövlət siyasətinin əsas məqsədlərindəndir. Azərbaycan Respublikasında tolerantlıq prinsipləri öz təcəssümünü dövlətin dini konfessiyalara olan münasibətində, müxtəlif dinlərin nümayəndələri olan vətəndaşların bərabərhüquqluluq və dözümlülük, qarşılıqlı anlaşma mühitində dinc yanaşı yaşamasında, onların tarixi-dini abidələrinin bərpa olunmasında, bu istiqamətdə təşkil edilən beynəlxalq forumlar və konfransların keçirilməsində və milli dövlət qanunvericiliyinin əsasında tapmışdır. Demək olar ki, Azərbaycan əhalisinin- 96%-ni müsəlmanlar, 4%-ni xristian, yəhudi, bəhai, krişna və digər dinlərə mənsub insanlar təşkil edir. Respublikada böyük əksəriyyəti on iki imamçı şiə, minimal bir hissəsi sünni məzhəbinin nümayəndələri, xristian dininin isə bütün cərəyanlarının davamçıları: pravoslav, katolik, lüteran və protestant təriqətlərinin, həm də, tarixi Alban kilsəsinin dini mənsubları olan xristianlar da yaşayırlar. Hal-hazırda Azərbaycan Respublikasında 2246 məscid, 14 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Respublikada ibadət evləri ilə yanaşı, eyni zamanda, xristian və yəhudi dinini tədris edən müəssisələr, pravoslav kilsələrinin nəzdində bazar günü məktəbləri, protestant icmalarına mənsub Bibliya kursları, yəhudilərin ivrit dilinin, dininin və mədəniyyətlərinin öyrədilməsinə aid və digər kurslar fəaliyyət göstərir. 2010-cu il aprelin 26-27-də Azərbaycanda keçirilən tədbirlərdən biri olan Dünya Dini Liderlərinin Bakı Sammitində Rus Pravoslav, Gürcü Pravoslav, Erməni Qriqorian kilsələrinin rəhbərləri, Vatikanın, Konstantinopol Patriaxlığının, İslam dünyasının nüfuzlu din xadimləri iştirak etdilər [9]. Bakıda Azərbaycan Respublikasının ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu beş dəfə təşkil olunubdur. 7-9 aprel 2011-ci il tarixində "Dövlət və din: qloballaşan dünyada tolerantlığın gücləndirilməsi" mövzusunda keçirilən I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 2013-cü il 29 may- 01 iyun tarixlərində "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" şüarı altında II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 2015-ci il 18-19 may tarixlərində "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" şüarı altında III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 2017-ci il 5 may tarixində "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 2019-cu il 2 may tarixində Bakıda "Ayrı-seçkilik, qeyribərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu. Azərbaycan, ümumilikdə, bir çox beynəlxalq tədbirlərin təşkilində ev sahibliyi edib: Dünya Dini Liderlərinin Forumu, ənənəvi Bakı Humanitar Forumu, yeddi dəfə Bakı Qlobal Forumu. Bundan başqa 1 dekabr 2016-cı ildə "Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın

multikulturalizm modeli” mövzusunda Beynəlxalq Konfrans keçirilib. Respublika Prezidenti İlham Əliyevin qeyd elədiyi kimi:

*“Bizim üçün multikulturalizm həm həyat tərzidir, həm də dövlətimizin apardığı siyasətdir. Multikulturalizmin ünvanlarından biri Azərbaycandır. Fəxr edirik ki, biz çoxmillətli, çoxkonfessiyalı ölkəyik, Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri ləyaqətlə yaşayırlar…”* [9].

Prezident daha bir yadda qalan Sərəncam verib: 2017-ci il “İslam Həmrəyliyi İli” elan edilib və Bakıda 21-22 dekabr tarixlərində “2017- İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda Beynəlxalq Konfrans keçirilib. 2008-ci ildən keçirilən “Bakı Prosesi” Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatına Üzv dövlətləri- Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitə kimi böyük əhəmiyyətə malikdir. Bütün bu tədbirlərin Azərbaycanda təşkil edilməsi “tariximiz, coğrafiyamız və düşüncəmizdən qaynaqlanır”- deyə İlham Əliyev qeyd eləmişdir [https://culture.gov.az/az/umumi-xeberler/forum-acilis (2019.05.02)].

**5.Nəticə**

Ölkəmiz tarixi boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələri olan insanların birgə, dinc və əmin-amanlıq şəraitində yaşayıb-yaratdığı və təmasda olduğu bir diyardır. Monoetnik bir dövlət olan Ermənistandan fərqli olaraq, Azərbaycan əsrlər boyu dini dözümlülük, müxtəlif xalqların və millətlərin birgə yaşadığı məkan olmuşdur. Ermənilər davamlı olaraq irəli sürdükləri ərazi iddialarına, həyata keçirdikləri işğal aktlarına, xalqımıza qarşı törətdikləri etnik təmizləməyə dini don geyindirməyə çalışaraq, bu münaqişəni xristian və müsəlman dünyasına genişləndirməyə cəhd edirdilər, lakin, işğaldan Azərbaycan torpaqlarını azad etmək üçün “2020-ci il 27 sentyabrdan 10 noyabradək aparılan Vətən müharibəsində bütün dinlərə mənsub döyüşçülərin: rus, yəhudi, ləzgi və digər millətlərdən olan Azərbaycan vətəndaşlarının çiyin-çiyinə vuruşması, onların bu haqq yolunda şəhid olması bir daha bütün dünyaya sübut etdi ki, ölkəmiz müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin bir ailə kimi yaşadığı və yaşayacağı tarixi bir diyardır. Bu torpaqlarda yaşayan, bu dövlətin vətəndaşları olan bütün milli azlıqların hüquqları beynəlxalq norma və prinsiplərə əsaslanaraq dövlətdaxili qanunvericiliklə müdafiə olunur. Azərbaycan dövlət başçıları: ulu öndər Heydər Əliyev və Respublika Prezidenti İlham Əliyev bu münaqişənin həlli yollarını müzakirə edərkən Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağa ən yüksək muxtariyyət forması verməyə hazır olduqlarını həmişə bildirmişlər, lakin, ermənilər imtina etmişlər və göründüyü kimi ermənilərin guya “öz müqəddəratını təyinetmə hüquqları”nın pozulmasına yol verilmişdir. Lakin, ermənilər dövlət içində dövlət yaratmaq xülyası naminə Azərbaycan

dövlətinin onlara verdiyi bu şansı itirdilər. Biz: Müzəffər Ali Baş Komandan İlham Əliyev, Qalib Milli Ordumuz və xalq "Dəmir Yumruq" əməliyyatı ilə Azərbaycanın ərazi bütövlüyünü 2020-ci il 27 sentyabrdan-10 noyabradək-Ermənistan Silahlı Qüvvələrinin atəşkəsi pozması nəticəsində başlayan İkinci Qarabağ savaşında döyüşərək bərpa etdik, Azərbaycan Prezidenti dediyi kimi: *"... biz qələbə çaldıq, həm masada, həm də döyüş meydanında"*.

## ƏDƏBİYYAT


1. Suleymanova, E. (2003) *Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman)*. Azərbaycan Respublikasının iştirakçı olduğu beynəlxalq konvensiyaların qanunvericilikdə təsbiti. Bakı: Qanun, 58 s.
2. *Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik*. Bakı: BBMM, 2017. 416 səh.
3. Avropa ġurası Parlament Assambleyasının (AŞPA) "*Müasir beynəlxalq hüquqda milli suverenlik və dövlətçilik*" adlı 1832 (2011) saylı qətnamə. https://www.coe.int/T/r/Parliamentary_Assembly/[Russian_documents]/[2011]/[Oct2011]/Res1832_rus.asp
4. *Azərbaycan Respublikasının Konstitusiyası*, maddə 25 https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvNXdmMDZvdmx2Yl9Lb25zdGl0dXNpeWFfQVpFLnBkZiJdXQ?sha=d654e4f6cd152b25
5. *Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların qanunvericilikdə təsbiti*. Bakı, Qanun, 2003, s.58, s.41 http://anl.az/el/a/ariobkmqt.pdf
6. *Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*. http://www.e-qanun.az/framework/7762
7. Azərbaycan Respublikasinda Milli azliqlarin müdafiəsi, dil və mədəniyyətinin inkişafi sahəsində həyata keçirilən tədbirlər haqqinda. Milli azlıqların müdafiəsi haqqında hesabat, 03-12-2020 http://multikulturalizm.gov.az/post/1765/azerbaycan-respublikasinda-milli-azliqlarin-mudafiesi-dil-ve-medeniyyetinin-inkisafi-sahesinde-heyata-kecirilen-tedbirler-haqqinda.html
8. *Azərbaycanda yaşayan hər kəs dinindən və dilindən asılı olmayaraq, bu ölkənin tamhüquqlu vətəndaşıdır*. https://paralel.az/az/article/84098
9. *Azərbaycanda tolerantlıq* https://azerbaijan.az/related-information/87

**10.** *Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.* Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib. 02.05.2019
http://mct.gov.az/az/umumi-xeberler/forum-acilis

**11.** *В ходе своего визита в Азербайджан патриарх Варфоламей искал выход из конфликта в Нагорном Карабахе и налаживал межрелигиозный диалог.* 24. 03. 2003. Справочно-информационный портал “Религия и СМИ”
http://www.religare.ru/article3656.Htm

**12.** *Второй периодический доклад Азербайджанской Республики в комитете по правам человека.* 8 ноября 1999 г. п. 29, 30, 31, 36. Human Rights Committee - Country Report, Azerbaijan, 2000.
http://www.1.umn.edu/humanrts/Russian/hrcommitee/Rhrcrprt–Azerbaijan2000.html

**13.** *Dünyada milli-mədəni müxtəlifliyin qorunması kontekstində: AzərbaycanYUNESKO əlaqələri.*
https://mehribanaliyeva.preslib.az/media-54d418f4ef.html

**14.** Nəcəfov, E. (2018). Heydər Əliyev və Azərbaycanda etnik-mədəni müxtəlifliyin tənzimlənməsi. *Xalq qəzeti,* 9 may. s.6.
http://www.anl.az/down/meqale/xalqqazeti/2018/may/590700.htm

**15.** Ермолаева, В. *Патриарх Московский и Всея Руси Алексий II: Я видел в Азербайджане уникальный опыт.*
http://www.azerros.ru/pnhtml/n10.05.htm

**16.** *Heydər Əliyev və Azərbaycanda etnik-mədəni müxtəlifliyin tənzimlənməsi.* 10.05.2018.
http://old.xalqqazeti.com/az/news/politics/104162

**17.** *Mədəni müxtəliflik.*
https://multiculturalism.preslib.az/az_a5.html

**18.** Nuriyeva, İ. T. (2021). *Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinə etnosiyasi yanaşma.* Monoqrafiya. Bakı: Mütərcim. 352 səh.

# Политика великого лидера Гейдара Алиева по защите прав и свобод национальных меньшинств и направления ее развития

**Ирада Нуриева***

**Абстракт.** В статье «Политика Великого Лидера Гейдара Алиева по защите прав и свобод национальных меньшинств и направления ее развития» привлечена к исследованию политика Великого Лидера Гейдара Алиева и Азербайджанской Республики по обеспечению, охране и защите прав и свобод представителей меньшинств, этнических групп и вообще всех наций. Мультикультурализм, основанный на принципах и нормах международного права, международных соглашениях, сторонником которых является наша страна, статьях Конституции Азербайджана и принятых государством законах, является фактором, провозглашающим существование демократического общества в качестве приоритетного направления государственной политики, проводимой Азербайджанской Республикой. Азербайджан является страной, где совместно проживают различные национальности, малочисленные народы и этнические группы и имеет исторический опыт мирного сосуществования, основанного на взаимном уважении традиций, языка, религии друг друга, равноправии религиозных собраний, межрелигиозной интеграции, толерантности, взаимопонимании и дружеские добрососедские отношения. Успешная политика мультикультурализма Великого Лидера Гейдара Алиева и его преемника, Президента Азербайджана Ильхама Алиева, принятые ими указы и распоряжения гарантируют равенство прав и свобод граждан Азербайджана. Реализация политики по защите прав и свобод национальных меньшинств, малочисленных народов и этнических групп, а также развития языка и культуры в качестве основной задачи возложена на соответствующие государственные институты.

**Ключевые слова**: Великий Лидер Гейдар Алиев, мультикультурализм, толерантность, национальное меньшинство, равноправие, межрелигиозная интеграция, взаимопонимание, мирное сосуществование

---

* Доктор политических наук, профессор,
Доктор политических наук, профессор кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета Нефти и Промышленности; Баку Азербайджан
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**Цитировать статью:** Нуриева, И. [2023]. Политика великого лидера Гейдара Алиева по защите прав и свобод национальных меньшинств и направления ее развития. *Журнал «Metafizika»,* 6(2), с.19-37.

***История статьи:***
*Статья поступила в редакцию: 22.01.2023*
*Отправлена на доработку: 27.02.2023*
*Принята для печати: 06.06.2023*

# Great leader Hayder Aliyev's policy on protecting the rights and freedoms of national minorities and its development directions

**Irada Nuriyeva***

**Abstract.** In the article "Great Leader Heydar Aliyev's policy on the protection of the rights and freedoms of national minorities and its development directions", the policy of the Great Leader Heydar Aliyev and the Republic of Azerbaijan on ensuring, protecting and defending the rights and freedoms of representatives of minority nations and ethnic groups, in general, of all nations is interpreted. Multiculturalism, based on the principles and norms of international law, international agreements that our country is a supporter of, articles of the Constitution of Azerbaijan and laws adopted by the state, is a factor that declares the existence of a democratic society as a priority direction of the state policy implemented by the Republic of Azerbaijan. Azerbaijan is a country where different nationalities, minority peoples and ethnic groups live together and has a historical experience of peaceful coexistence based on mutual respect for each other's traditions, language, religion, equal rights of religious conferences, interreligious integration, tolerance, mutual understanding and friendly neighborly relations. The policy of multiculturalism successfully implemented by the Great Leader Hedar Aliyev and his successor, the President of Azerbaijan Ilham Aliyev, and the decrees and orders they adopted guarantee the equality of rights and freedoms of the citizens of Azerbaijan. The implementation of the policy of protecting the rights and freedoms of national minorities, minority peoples and ethnic groups, as well as the development of language and culture, is assigned to relevant state institutions as the main task.

**Keywords:** Great Leader Heydar Aliyev, multiculturalism, tolerance, national minority, equal rights, interreligious integration, mutual understanding, peaceful coexistence

## REFERENCES

**1.** Suleymanova, E. (2003). *Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan*. Legislation of the international conventions to which the Republic of Azerbaijan is a party. Baku: Law, 58 p.

* Doctor of Political Sciences, professor,
Professor at theDepartment of Human Sciences of Azerbaijan State Oil and Industry University; Baku Azerbaijan
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**To cite this article:** Nuriyeva, I. [2023]. Great leader Hayder Aliyev's policy on protecting the rights and freedoms of national minorities and its development directions. *"Metafizika" journal, 6*(2), pp.19-37.

***Article history:***
*Received: 22.01.2023*
*Accepted: 06.06.2023*

2. *Multiculturalism of Azerbaijan: A textbook for higher schools*. Baku: BBMM, 2017. 416 p.
3. Resolution No. 1832 (2011) of the Parliamentary Assembly of the European Parliament (PACE) entitled "*National sovereignty and statehood in modern international law*". https://www.coe.int/T/r/Parliamentary_Assembly/[Russian_documents]/[2011]/[Oct2011]/Res1832_rus.asp
4. *Constitution of the Republic of Azerbaijan*, Article 25 https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvNXdmMDZvdmx2Yl9Lb25zdGl0dXNpeWFfQVpFLnBkZiJdXQ?sha=d654e4f6cd152b25
5. *Legislation of international conventions to which the Republic of Azerbaijan is a party*. Baku, Law, 2003, p.58, p.41 http://anl.az/el/a/ariobkmqt.pdf
6. *Decree of the President of the Republic of Azerbaijan on state assistance for the protection of the rights and freedoms of national minorities, minority peoples and ethnic groups living in the Republic of Azerbaijan, and for the development of their language and culture.* http://www.e-ganun.az/framework/7762
7. *About measures implemented in the field of protection of national minorities, development of language and culture in the Republic of Azerbaijan. Report on the protection of national minorities*, 03-12-2020 http://multikulturalizm.gov.az/post/1765/azerbaycan-respublikasinda-milli-azliqlarin-mudafiesi-dil-ve-medeniyyetinin-inkisafi-sahesinde-heyata-kecirilen-tedbirler-hagginda.html
8. *Everyone living in Azerbaijan is a full-fledged citizen of this country, regardless of religion and language.* https://paralel.az/az/article/84098
9. *Tolerance in Azerbaijan.* https://azerbaijan.az/related-information/87
10. *The 5th World Intercultural Dialogue Forum has started in Baku. President of Azerbaijan Ilham Aliyev participated in the opening of the Forum*. 02.05.2019 http://mct.gov.az/az/umumi-xeberler/forum-acilis
11. *During his visit to Azerbaijan, Patriarch Bartholomew sought a way out of the conflict in Nagorno-Karabakh and established an interreligious dialogue*. 24. 03. 2003. Information portal "Religion and Media" http://www.religare.ru/article3656.htm
12. *The Second Periodic Report of the Republic of Azerbaijan in the Committee on Human Rights*. November 8, 1999 p.29, 30, 31, 36. Human

Rights Committee- Country Report, Azerbaijan, 2000. http://www.1.umn.edu/humanrts/Russian/hrcommitee/Rhrcrprt–Azerbaijan2000.html

**13.** *In the context of protection of national-cultural diversity in the world: Azerbaijan-UNESCO relations.* https://mehribanaliyeva.preslib.az/media-54d418f4ef.html

**14.** Najafov, E. (2018). *Heydar Aliyev and the regulation of ethno-cultural diversity in Azerbaijan. People's newspaper*, May 9. p. 6. http://www.anl.az/down/megale/xalqqazeti/2018/may/590700.htm

**15.** Ermolaeva, V. *Patriarch of Moscow and All Russia Alexy II: I saw a unique experience in Azerbaijan.* http://www.azerros.ru/pnhtml/n10.05.htm

**16.** *Heydar Aliyev and regulation of ethno-cultural diversity in Azerbaijan.* 10.05.2018. http://old.xalqqazeti.com/az/news/politics/104162

**17.** *Cultural diversity.* https://multiculturalism.preslib.az/az_a5.html

**18.** Nuriyeva, I. T. (2021). *An ethnopolitical approach to the principles of territorial integrity and self-determination.* Monograph. Baku: Translator. 352 pages.